**A Z Ə R B A Y C A N R E S P U B L İ K A S I**
**BAKI ŞƏHƏRİ BİNƏQƏDİ RAYON İCRA HAKİMİYYƏTİNİN BAŞÇISININ**

**S Ə R Ə N C A M I**

---

**№** 61 «13» Aprel **2026-cı il**

**Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 4 aprel tarixli 3199 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Korrupsiyaya qarşı mübarizənin gücləndirilməsinə dair 2022-2026-cı illər üçün Milli Fəaliyyət Planı" çərçivəsində tədbirlərin həyata keçirilməsi məqsədi ilə Binəqədi Rayon İcra Hakimiyyətinin başçısı Aparatının 2026-cı il üzrə İş Planının təsdiq edilməsi haqqında**

Korrupsiyaya qarşı mübarizənin gücləndirilməsinə dair 2022-2026-cı illəri əhatə edən bu çoxşaxəli Milli Fəaliyyət Planının fərdi fəaliyyət istiqamətlərinə uyğun olaraq, 2022-2025-ci illər ərzində Binəqədi Rayon İcra Hakimiyyəti tərəfindən rayon ərazisində fəaliyyət göstərən hüquq-mühafizə orqanları, təhsil və səhiyyə müəssisələri, yerli özünüidarəetmə orqanları, ümumilikdə, aidiyyəti dövlət strukturları və vətəndaş cəmiyyəti institutları (o cümlədən, Binəqədi Rayon İcra Hakimiyyəti yanında İctimai Şura) ilə birgə korrupsiyaya qarşı mübarizənin sistemli və əlaqəli şəkildə gerçəkləşdirilməsi istiqamətində tədbirlər davamlı şəkildə həyata keçirilmişdir.

Milli Fəaliyyət Planına uyğun olaraq, Binəqədi Rayon İcra Hakimiyyəti başçısının müvafiq sərəncamları ilə 2022-2025-ci illər üzrə təsdiqlənmiş iş planlarına əsasən korrupsiyaya qarşı mübarizə sahəsində qarşıya qoyulmuş əsas prioritetlər üzrə məqsədlərə nail olunması istiqamətində müəyyənləşdirilmiş hədəflərə uyğun olaraq Rayon İcra Hakimiyyətində və tabeli qurumlarda tədbirlər davam etdirilmişdir.

Rəqəmsal inkişaf və elektron hökumət üzrə dövlət proqramlarının həyata keçirilməsi, avtomatlaşdırma, rəqəmsal inkişaf və elektron hökumət fəaliyyətləri, o cümlədən xidmətlərin və proseslərin rəqəmsallaşdırılması üzrə tədbirlər çərçivəsində RİH tərəfindən göstərilən elektron xidmətlərin sayının artırılması və səmərəliliyinin yüksəldilməsi məqsədilə həmin xidmətlərin Elektron Hökumət İnformasiya Sisteminə inteqrasiya olunmuş vahid rəqəmsal icra hakimiyyəti portalı üzərindən göstərilməsi ilə bağlı müvafiq rəy və təkliflər hazırlanaraq, aidiyyəti üzrə Rəqəmsal İnkişaf Nazirliyinə müraciətlər ünvanlanmış, hazırda bu istiqamətdə işlər davam etdirilir. Tədbirlər Planına uyğun olaraq, zəruri məlumatların ictimaiyyət üçün açıq şəkildə RİH-in rəsmi internet səhifəsində "Açıq məlumatlar" bölməsində yerləşdirilməsi, aktuallığının daim təmin edilməsi və s. istiqamətdə tədbirlər həyata keçirilmiş, həmin məlumatların mütəmadi olaraq yenilənməsi nəzarətdə saxlanılır. İdarəetmə mexanizmlərinin təkmilləşdirilməsi, rayonda fəaliyyət göstərən bələdiyyə qurumları tərəfindən yerli özünüidarəetmədə aşkarlığın və müvafiq qərarların qəbulunda ictimai iştirakçılığın təmin edilməsi, şəxsin yaşayış sahəsinə ehtiyacı olan qismində uçota alınması qaydasının elektronlaşdırılması və s. istiqamətdə də RİH tərəfindən zəruri tədbirlər həyata keçirilmişdir.

Milli Fəaliyyət Planına uyğun olaraq, dövlət xidmətləri sahəsində fəaliyyətin təşkilati, hüquqi və iqtisadi əsaslarını müəyyən edən, həmçinin dövlət xidmətlərinin göstərilməsi sahəsində münasibətləri tənzimləyən qanun layihəsi hazırlanaraq, aidiyyəti qurumların təklifləri də nəzərə alınmaqla "Dövlət xidmətləri haqqında" 31 oktyabr 2025-ci il tarixli 279-VIIQ nömrəli Azərbaycan Respublikasının Qanunu qəbul olundu.

RİH-in struktur bölmələri tərərfindən müvafiq dövrlər üzrə tapşırıqların icrası istiqamətində tədbirlərin həyata keçirilməsi nəzarətdə saxlanılır.

Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 4 aprel tarixli 3199 nömrəli Sərəncamı ilə təsdiq edilmiş “Korrupsiyaya qarşı mübarizənin gücləndirilməsinə dair 2022-2026-cı illər üçün Milli Fəaliyyət Planı” üzrə həyata keçirilən tədbirlərin davamlılığının təmin edilməsi məqsədi ilə “Yerli icra hakimiyyətləri haqqında Əsasnamə”nin 6.8-ci bəndinə əsaslanaraq

**QƏRARA ALIRAM:**

1. Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 4 aprel tarixli 3199 nömrəli Sərəncamı ilə təsdiq edilmiş “Korrupsiyaya qarşı mübarizənin gücləndirilməsinə dair 2022-2026-cı illər üçün Milli Fəaliyyət Planı”na əsasən tədbirlərin davamlılığının təmin edilməsi ilə Binəqədi Rayon İcra Hakimiyyətinin başçısı Aparatının **2026-cı il üzrə İş Planı** təsdiq edilsin.

2. Binəqədi Rayon İcra Hakimiyyətinin başçısı Aparatının Sosial-iqtisadi məsələlər, informasiya təminatı və təhlil sektorunun baş məsləhətçisi (əhali ilə işin təşkilatçısı) Aynur Quliyevaya tapşırılsın ki, Fəaliyyət Planının icrası üzrə Binəqədi Rayon İcra Hakimiyyətinin başçısı Aparatının 2026-cı il üzrə təsdiq olunmuş İş Planının Azərbaycan Respublikasının Korrupsiyaya qarşı mübarizə üzrə Komissiyasına elektron formada göndərilməsini təmin etsin.

3. Binəqədi Rayon İcra Hakimiyyəti başçısının birinci müavini Hacıbaba Babayevə, başçının müavini – Ərazi-təşkilat və ictimai-siyasi məsələlər şöbəsinin müdiri Sevinc Süleymanovaya tapşırılsın ki, Aparatın struktur bölmələri tərəfindən İş Planında nəzərdə tutulmuş tədbirlərin müvafiq dövrlər üzrə icrasının nəzarətdə saxlanmasını təmin etsinlər.

4. Aparatın struktur bölmələrinin rəhbərlərinə tapşırılsın ki, İş Planında nəzərdə tutulmuş tədbirlərin icrası barədə məlumatları **cari ilin 20 dekabr** tarixinədək Aparatın Sosial-iqtisadi məsələlər, informasiya təminatı və təhlil sektorunun baş məsləhətçisi (əhali ilə işin təşkilatçısı) Aynur Quliyevaya təqdim etsinlər.

5. Binəqədi Rayon İcra Hakimiyyətinin başçısı Aparatının Sosial-iqtisadi məsələlər, informasiya təminatı və təhlil sektorunun baş məsləhətçisi (əhali ilə işin təşkilatçısı) Aynur Quliyevaya tapşırılsın ki, Aparatın struktur bölmələri tərəfindən təqdim olunmuş məlumatlar əsasında illik hesabatı hazırlayıb **dekabrın 30-dək** Azərbaycan Respublikasının Nazirlər Kabinetinə və Azərbaycan Respublikasının Korrupsiyaya qarşı mübarizə üzrə Komissiyasına təqdim olunmasını təmin etsin.

6. Binəqədi Rayon İcra Hakimiyyətinin başçısı Aparatının ə tapşırılsın ki, Sərəncamın surətinin aidiyyəti üzrə çatdırılmasını təmin etsin.

7. Sərəncamın icrasına nəzarəti öz üzərimdə saxlayıram.

**Elxan Allahverdiyev**

***ƏSLİ İLƏ DÜZDÜR:***

**Sənəd dövriyyəsi, vətəndaş müraciətləri və inzibati işlər şöbəsinin müdiri** **Sabir Əliyev**

Azərbaycan Respublikası Bakı şəhəri Binəqədi rayon İcra Hakimiyyəti
SƏNƏDLƏR ÜÇÜN

Binəqədi Rayon İcra Hakimiyyəti Başçısının
“___” aprel 2026-ci il tarixli ___ nömrəli
Sərəncamı ilə təsdiq edilmişdir

_______________ E.Allahverdiyev

**Azərbaycan Respublikası Prezidentinin 04 aprel 2022-ci il tarixli 3199 nömrəli Sərəncamı ilə təsdiq edilmiş “Korrupsiyaya qarşı mübarizənin gücləndirilməsinə dair 2022-2026-cı illər üçün Milli Fəaliyyət Planı” üzrə Tədbirlər Planının icrası ilə əlaqədar Binəqədi Rayon İcra Hakimiyyətinin başçısı Aparatının 2026-cı il üçün**

# İŞ PLANI

| Sıra №-si | Tədbirin adı | Əsas icraçı | Digər icraçılar | İcra müddəti | Görülmüş işlər | Məsul şəxslər |
|---|---|---|---|---|---|---|
| 1 | 2 | 3 | 4 | 5 | 6 | 7 |
| Prioritet 1. Korrupsiyanın qarşısının alınması və şəffaflığın gücləndirilməsi sahəsində tədbirlər | | | | | | |
| 1 | 2 | 3 | 4 | 5 | 6 | 7 |
| 1.1. | Binəqədi Rayon İcra Hakimiyyəti tərəfindən göstərilən elektron xidmətlərin sayının artırılması və səmərəliliyinin yüksəldilməsi məqsədilə həmin xidmətlərin Elektron Hökumət Portalına inteqrasiya olunmuş vahid rəqəmsal icra hakimiyyəti portalı üzərindən göstərilməsi | Sosial-iqtisadi, memarlıq-tikinti məsələləri və rayon təsərrüfatı şöbəsi, Sosial-iqtisadi məsələlər, informasiya təminatı və təhlil sektoru | RİH başçısı Aparatının aidiyyəti struktur bölmələri | İl ərzində | Cari ildə daha 2 xidmətin rih.gov.az.portal üzərindən göstərilməsinin təmin edilməsi ilə bağlı RİH tərəfindən aidiyyəti üzrə Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinə 11 fevral 2025-ci il tarixli 5-10/2-302/2025 nömrəli məktubla müraciət olunmuşdur. RİNN-dən daxil olmuş cavab məktubunda (28.02.2025; № 3-27/2-1650/2025) bildirilir ki, yerli icra hakimiyyəti orqanlarına aid digər xidmətlərin elektronlaşdırılmasının təmin edilməsi istiqamətində yerli icra hakimiyyəti orqanlarının iştirakı ilə işçi qrupun yaradılması nəzərdə tutulmuşdur. | S.Süleymanova<br>A.Quliyeva<br>A.Abbasova<br>R.Həsənov<br>S.Mənəfov<br>N.Allahverdiyev<br>Z.Nəcəfova<br>Ş.Musayev<br>S.Əliyev<br>V.Eyvazova |

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| 1.2. | Binəqədi Rayon İcra Hakimiyyəti başçısının aktlarının (normativ xarakterli aktlar istisna olmaqla) uçota alınması qaydalarının təkmilləşdirilməsi və həmin aktların elektron bazasının yaradılması | Sosial-iqtisadi, memarlıq-tikinti məsələləri və rayon təsərrüfatı şöbəsi, Sosial-iqtisadi məsələlər, informasiya təminatı və təhlil sektoru | Sənəd dövriyyəsi, vətəndaş müraciətləri və inzibati işlər şöbəsi | İl ərzində | Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin tabeliyinə olan İnnovasiya və Rəqəmsal İnkişaf Agentliyindən daxil olmuş 04 dekabr 2023-cü il tarixli məktuba əsasən bildirilmişdir ki, Nazirlər Kabinetinin 13 aprel 2023-cü il tarixli 106 nömrəli Qərarına əsasən Agentlik tərəfindən "Yerli icra hakimiyyəti orqanları başçılarının qeyri-normativ hüquqi aktlarının reyestri informasiya sistemi" formalaşdırılmışdır. Sistemin yerli icra hakimiyyəti orqanlarında cari ildə tətbiqi nəzərdə tutulmuşdr. | A.Quliyeva<br>S.Əliyev |
| 1.3. | Şəxsin yaşayış sahəsinə ehtiyacı olan qismində uçotunun aparılması qaydasının təsdiqi və uçota alınma ilə bağlı dövlət xidmətlərinin elektronlaşdırılması, habelə Binəqədi Rayon İcra Hakimiyyəti tərəfindən yaşayış sahəsinə ehtiyacı olan şəxslərin və təklif edilən mənzil fondunun siyahılarının ictimaiyyət üçün açıq şəkildə öz rəsmi internet səhifəsində dərc edilməsi və aktuallığının daim təmin edilməsi | Sosial-iqtisadi, memarlıq-tikinti məsələləri və rayon təsərrüfatı şöbəsi, Sosial-iqtisadi məsələlər, informasiya təminatı və təhlil sektoru | Ərazi-təşkilat və ictimai-siyasi məsələlər şöbəsi, Müharibə iştirakçıları və şəhid ailələri ilə işin təşkili sektoru;<br><br>Hüquq və kadr məsələləri sektoru | İl ərzində | Şəxsin yaşayış sahəsinə ehtiyacı olan qismində uçotunun aparılması qaydasının təsdiqi və uçota alınma ilə bağlı dövlət xidmətlərinin elektronlaşdırılması ilə bağlı aidiyyəti üzrə müraciət olunmuşdur. Eyni zamanda, Binəqədi RİH tərəfindən yaşayış sahəsinə ehtiyacı olan şəxslərin və təklif edilən mənzil fondunun siyahılarının ictimaiyyət üçün açıq şəkildə RİH-in rəsmi internet səhifəsində dərc edilməsi və aktuallığının daim təmin edilməsi (http://binegedi-ih.gov.az/az/menzil-ucot-siyahilari.html) nəzarətdə saxlanılır. | S.Süleymanova<br>A.Quliyeva<br>S.Mənəfov<br>V.Eyvazova |
| 1.4. | Binəqədi Rayon İcra Hakimiyyəti tərəfindən korrupsiya risklərinin qiymətləndirilməsi və qarşısının alınması ilə | Hüquq və kadr məsələləri sektoru; | RİH başçısı Aparatının aidiyyəti struktur bölmələri | 2025-ci ilin IV rübü | Fəaliyyət Planının 1.1.-ci bəndinə əsasən, Dövlət orqanlarının (qurumlarının) fəaliyyətində korrupsiya risklərinin müəyyən edilməsi, təhlili və qarşısının alınması qaydaları Azərbaycan Respublikasının | S.Süleymanova<br>V.Eyvazova<br>A.Quliyeva<br>R.Həsənov<br>N.Allahverdiyev |

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| | bağlı illik hesabatların hazırlanması və Korrupsiyaya qarşı mübarizə üzrə Komissiyaya təqdim edilməsi | Sosial-iqtisadi, memarlıq-tikinti məsələləri və rayon təsərrüfatı şöbəsi, Sosial-iqtisadi məsələlər, informasiya təminatı və təhlil sektoru | | | Nazirlər Kabineti tərəfindən müəyyənləşdirilmədiyindən, ötən hesabat dövrlərində korrupsiya risklərinin qiymətləndirilməsi və qarşısının alınması ilə bağlı illik hesabatların hazırlanması mümkün olmamışdır. | S.Mənəfov<br>Ş.Musayev<br>Z.Nəcəfova<br>S.Əliyev |
| **Prioritet 2. Korrupsiyaya qarşı mübarizə sahəsində vətəndaş cəmiyyəti institutları ilə əməkdaşlığın və bu sahədə beynəlxalq əməkdaşlığın inkişaf etdirilməsi** | | | | | | |
| 1 | 2 | 3 | 4 | 5 | 6 | 7 |
| 2.1. | Korrupsiyaya qarşı mübarizə sahəsində fəaliyyət göstərən vətəndaş cəmiyyəti institutları ilə Binəqədi Rayon İcra Hakimiyyəti arasında əməkdaşlığın daha da gücləndirilməsi və birgə layihələrin həyata keçirilməsi | Ərazi-təşkilat və ictimai-siyasi məsələlər şöbəsi, İctimai-siyasi və humanitar məsələlər sektoru | Hüquq və kadr məsələləri sektoru | İl ərzində | Binəqədi Rayon Icra Hakimiyyətində vətəndaş cəmiyyəti institutları tərəfindən seçilmiş İctimai Şura 2024-cü ildə də fəaliyyətini davam etdirdi. Binəqədi rayon idarə və təşkilatlarında QHT-lər, dövlət orqanları, Baş Prokurorluğun, Korrupsiyaya Qarşı Mübarizə üzrə Komissiyanın nümayəndələrinin, eləcə də, Binəqədi Rayon İctimai Şura üzvlərinin iştirakı ilə mütəmadi olaraq maarifləndirmə tədbirləri və dəyirmi masalar keçirilir: http://binegedi-ih.gov.az/az/news/binegedi-rayonunda-korrupsiya-ile-elaqedar-huquqpozmalar-ve-mesuliyyet-movzusunda-telim-kecirildi.html | S.Süleymanova<br>N.Allahverdiyev<br>V.Eyvazova |
| 2.2. | Binəqədi Rayon İcra Hakimiyyətində ictimai iştirakçılığın tətbiqinin genişləndirilməsi və ictimai şuraların fəaliyyətinin səmərəliliyinin artırılması | Ərazi-təşkilat və ictimai-siyasi məsələlər şöbəsi, İctimai-siyasi və humanitar məsələlər sektoru | | İl ərzində | Binəqədi Rayon İcra Hakimiyyəti tərəfindən "İctimai iştirakçılıq haqqında" Azərbaycan Respublikasının 22 noyabr 2013-cü il tarixli Qanununda nəzərdə tutulmuş məqsədlərə nail olmaq üçün müəyyən edilmiş fəaliyyət istiqamətləri üzrə işlərin həyata keçirilməsində vətəndaşların və vətəndaş cəmiyyət institutlarının iştirakı, RİH-in ictimaiyyətlə məsləhətləşməsi və ictimai rəyin | S.Süleymanova<br>N.Allahverdiyev |

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| | | | | | nəzərə alınması təmin edilir. Belə ki, Binəqədi RİH başçısı yanında keçirilən şura iclaslarında, RİH başçısının yerlərdə keçirdiyi səyyar görüşlərdə RİH yanında İctimai Şura üzvlərinin iştirakı təmin edilir, müvafiq tapşırıqların verilməsi zamanı aparılan müzakirələrə əsasən və qərarların qəbulu zamanı onların rəyi nəzərə alınır.<br>Binəqədi Rayon İcra Hakimiyyətinin rəsmi internet səhifəsində RİH yanında İctimai Şuranın fəaliyyətini əks etdirən müvafiq bölmə yaradılmışdır (http://binegedi-ih.gov.az/az/ictimai-sura.html).<br>Binəqədi RİH yanında İctimai Şuranın 2024-cü il ərzindəki fəaliyyətini əks etdirən aşağıakı məlumatlar RİH-in rəsmi internet səhifəsində yerləşdirilmişdir: http://binegedi-ih.gov.az/az/page/2024-cu-il-ictimai-suranin-kecirdiyi-tedbirler.html | |
| **Prioritet 3. Korrupsiyaya qarşı mübarizə üzrə maarifləndirmə** | | | | | | |
| **1** | **2** | **3** | **4** | **5** | **6** | **7** |
| 3.1. | Dövlət və bələdiyyə orqanlarının, dövlət və ya bələdiyyə mülkiyyətində olan və ya paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə və ya bələdiyyəyə məxsus olan hüquqi şəxslərin və büdcə təşkilatlarının işçilərində, o cümlədən tibb və təhsil işçilərində antikorrupsiya davranış modelinin formalaşdırılması ilə bağlı işlərin gücləndirilməsi, cəmiyyətdə məlumatlılığın | Ərazi-təşkilat və ictimai-siyasi məsələlər şöbəsi, İctimai-siyasi və humanitar məsələlər sektoru | RİH başçısı Aparatının aidiyyəti struktur bölmələri | Mütəmadi | 25 dekabr 2024-cü il tarixində Binəqədi Rayon İcra Hakimiyyətinin təşkilatçılığı ilə Sənaye və İnnovasiyalar üzrə Bakı Dövlət Peşə Təhsili Mərkəzində Korrupsiyaya qarşı mübarizə sahəsində fəaliyyət göstərən vətəndaş cəmiyyəti institutları ilə dövlət orqanları (qurumları) arasında əməkdaşlığın daha da gücləndirilməsi və birgə layihələrin həyata keçirilməsi məqsədi ilə “Korrupsiya ilə əlaqədar hüquqpozmalar və məsuliyyət” mövzusunda təlim keçirildi.<br>http://binegedi-ih.gov.az/az/news/binegedi-rayonunda-korrupsiya-ile-elaqedar-huquqpozmalar-ve-mesuliyyet-movzusunda-telim-kecirildi.html. | S.Süleymanova<br>N.Allahverdiyev<br>R.Həsənov<br>Ş.Musayev<br>V.Eyvazova |

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| | artırılmasına yönəlmiş maarifləndirmə, tədris və digər tədbirlərin səmərəliliyinin yüksəldilməsi məqsədilə tədbirlər görülməsi | | | | http://binegedi-ih.gov.az/az/page/rih-bascisi-aparatinda-2024-cu-ilde-kecirilmis-telimler-ve-maariflendirici-tedbirler.html | |
| 3.2. | Mediadan, o cümlədən Rayon İcra Hakimiyyətinin və bələdiyyələrin öz internet və sosial şəbəkə səhifələrindən istifadə etməklə korrupsiyaya qarşı mübarizə tədbirləri ilə əlaqədar xüsusi buraxılışların təşkili, ictimai müzakirələrin, videokonfransların keçirilməsi təcrübəsinin genişləndirilməsi, bu sahədə müxtəlif videoçarxların, bukletlərin hazırlanması və onların əhali arasında geniş yayılmasının təşviq edilməsi | Ərazi-təşkilat və ictimai-siyasi məsələlər şöbəsi, Ərazi-təşkilat məsələləri sektoru;<br><br>Ərazi-təşkilat və ictimai-siyasi məsələlər şöbəsi, İctimai-siyasi və humanitar məsələlər sektoru;<br><br>Sosial-iqtisadi, memarlıq-tikinti məsələləri və rayon təsərrüfatı şöbəsi, Sosial-iqtisadi məsələlər, informasiya təminatı və təhlil sektoru | | Mütəmadi | Hesabat dövrü ərzində korrupsiyaya qarşı mübarizə tədbirləri ilə əlaqədar ayrı-ayrı əhali qrupları arasında, idarə, müəssisə və təşkilatlarda Rayon İcra Hakimiyyətinin dəstəyi və hüquq-mühafizə orqanları əməkdaşlarının və QHT nümayəndələrinin yaxından iştirakı ilə ictimai müzakirələr keçirilmişdir. Rayonda fəaliyyət göstərən idarə, müəssisə və təşkilatların fəaliyyəti barədə ictimaiyyətə müntəzəm olaraq yenilənmiş əsaslarla Rayon İcra Hakimiyyətinin rəsmi internet səhifəsində www.binegedi-ih.gov.az yerləşdirilir. Rayon İcra Hakimiyyəti tərəfindən korrupsiyaya qarşı mübarizə sahəsində bukletlər, yaddaş kitabçaları və digər maarifləndirici materiallar nəşr edilərək əhali arasında paylanılmışdır. Rayon İcra Hakimiyyəti korrupsiyaya qarşı mübarizə ilə əlaqədar görülmüş işlərlə bağlı şəffaflığı artırmaq məqsədilə Kütləvi İnformasiya vasitələri ilə əlaqələr qurmuşdur: http://binegedi-ih.gov.az/az/news/binegedi-rayonunda-korrupsiyaya-qarsi-mubarizenin-guclendirilmesi-istiqametinde-maariflendirme-ve-tebligat-xarakterli-tedbirler-cari-ilde-de-davam-etdirilir.html;<br><br>https://www.youtube.com/watch?v=4aviZH3dS8c. | S.Süleymanova<br>R.Həsənov<br>N.Allahverdiyev<br>A.Quliyeva |